

■ Rahid Ulusel

# Qan və su

## XXI əsrin aforizmləri

**Altıncı hissə**

Əsas funksiyasında kim olub insan: Tarixin Əsgəri.

* * *

Müharibəyə insan şəklində girir, kölgə şəklində çıxırlar.

* * *

Müharibə qalib gəlmək üçün çox zəif silahdır.

* * *

Öz tarixini yaza bilməyən xalqların nəinki tarixini, hətta taleyini başqaları yazır.

* * *

Keçmişinin ağırlığı altında gələcəyini əzmə.

* * *

Tikmədiyin bir dünyada necə yaşaya bilərsən?!

* * *

Tarixin xarabalıqlarından gələcəyin qazıntıları tapır itirilmiş zamanı.

* * *

Xırdalar balinanın qarnında da tanqo oynamağa macal tapırlar.

* * *

Çağına uduzanın tarixi olmur.

* * *

Ölən - əsgər, şöhrətlənən - sərkərdə. Nə Makedoniyalı İsgəndərin, nə də Attilanın bir əsgərinin də adı dünya tarixinə düşməyib...

* * *

Müharibənin içindən həmişə bir titrək insanlıq qılınc kimi sıyrılıb, o müharibənin özünü doğrayır. Tarix - doğranmış müharibələrin qan və tüstü qoxulu tikələridir.

* * *

Qanla suvarılmış qılınclar susuzluqdan yanır.

* * *

İnsan yalnız onda dayanır - ət yeyərkən sümüyə çatanda.

* * *

Xarabalıqlar - ölmüş şəhərlərin skeletləri...

* * *

Hansı daha insaflıdır: əsgərin bədənini dəlib keçən, yoxsa orada ilişib qalan güllə?!

* * *

Kim dəfn edəcək dünyanın sonuncu insanını?!

* * *

İnsan heç dəyişmədiyindən, özünə tuşladığı silahları oxdan atomacan dəyişib modernləşir.

* * *

Balaca Adolf Hitlerin fotosunu böyüdüb iş otağıma qoymuşam: necə də məsum bir çocuq! Onunla xüsusi məşğul olmaq lazımdır ki, böyüyəndə Fürer olmasın.

* * *

Prometeyin odu insanların yaratdığı fatalist tarixdə ikisindən birinə çevrilməli idi: ya külə, ya atoma.

* * *

Diplomatiya - siyasətin əlcəkli əli.

* * *

Tarixi zibilləyən, ölü əsgərlərin leşini qoxudan müharibələri salnaməçilər onun süs-bəzəyi, cah-cəlalı tək vəsf edirlər.

* * *

İblis və İnsan: onlar bir-birinin portretini çox dəqiq çəkiblər.

* * *

Qan və Su: onlar qardaş olduğunu bir-birini yuyanda bilir.

* * *

Müharibədə - general, sülhdə - diplomat.

* * *

Müharibə haqqında həqiqətləri qalib bayraqlarını daşıyan səf-səf əsgərlərin gurultulu marşından daha çox, əlil döyüşçülərin protez ayaqlarının batıq iniltili taqqıltısı deyir.

* * *

Sudan quruya sürünə-sürünə çıxır, ballistik raketlərlə səmanı yara-yara uçur Yırtıcılıq.

* * *

Antik dünyadan gələn ən məşum səs - qulların iniltisi və çığırtısıdır.

* * *

Bəşəriyyət irəli və geri getməkdən daha çox, yerimək mümkün olmayan yan tərəflərə cərcənək açır.

* * *

Tarix mədəniyyətlə çiçəkləyir, müharibə ilə vağam olur.

* * *

Makedoniyalı İsgəndərin bədənində dövrünün bütün silahlarından aldığı yaraların çapıqları varmış. Ancaq onun işğalçı müharibələrinin dünya tarixinə vurduğu yaralar daha sağalmazdır.

* * *

Yalnız bu günlə yaşayırsansa, deməli, dünənlə sabahın uçurumundasan.

* * *

Tarix getdikcə daha çox aqnostikləşir. Aqnostikləşdikcə də elə zənn edir ki, həqiqətə daha çox yaxınlaşır.

* * *

Kütlə qalib gələndə - çoxluq, məğlub olanda - kölə olur.

* * *

Xəncər kimi iti pul. Onunla dil kəsmək olar.

* * *

Pulun sərvətə çevrilməsi - insanı da piramidaya çevirmək qüdrətində.

* * *

Sevginin gücünə baxın: zəhəri də şərbətlə verirlər ki, ölümqabağı həyatın son ləzzətini alasan!

* * *

Keçmişdə insanlar həşəratlardan, indi isə həşəratları qıran kimyəvi dərmanlardan qırılırlar.

* * *

Yəhudilər - bəşəriyyətin elitası.

* * *

Rasional tarix - məsuliyyəti dərk olunan zamandır.

* * *

Əbədiyyət: yaranışdan bəri sənə məxsus olan Anın Tarixi.

* * *

XXI əsr - yaşanılmış bütün əsrlərin kokteyli.

* * *

Meymun - Təbiətlə İnsan arasında bir təpədir ki, sürüşüb gah onun o üzünə, gah bu üzünə düşülür.

* * *

Dünya daha çox onu “düzəltmək” istəyənlərin günahından “əyilib”.

* * *

Baş - yaratdığı ideyadan işıqlanır, yaratdığı nüvədən - şüalanır.

* * *

Tarixdə münasibətlərin öc arxetipi: “Sən mənim keçimi öldürübsən. Mən isə sənin özünü öldürürəm.”

* * *

Bəziləri tarixdə onun neqativinə düşməklə “əbədiləşir”.

* * *

Xalq gərək öz tarixindən görünsün - düzənlikdən görünən dağ kimi.

* * *

Üç addım: Yer kürəsinin əhalisi - Bəşəriyyət, Bəşəriyyət - İnsanlığa yüksəlmək yolunda.

* * *

Dünya - həqiqətin suyunu kəsənlərin yox, onu şehi ilə suvaranlarındır.

* * *

Tarix hər an yenidən başlayır.

Kaspi 2020.- 16-18 may.- S.13.